*Zöhrə CAMALOVA*
*Kitabxana işinin təşkili və idarə olunması laboratoriyasının müdiri*

# SƏDAQƏT MEYARI

Doğru deyirlər ki, əsl vətəndaş üçün iş yeri ikinci ailə, kollektivdə çalışanlar isə ailə üzvləri olmalıdır. Doğma Vətənini, doğma xalqını sevən hər bir kəs iş yerində özünü ailədəki kimi hiss etməli, iş yoldaşları ilə qaynayıb-qarışmalı, lazım gələndə onların köməyinə çatmağı bacarmalı, öz vəzifəsini can-başla yerinə yetirməlidir. Əlbəttə, çox vaxt sıravi əməkdaşlar, xüsusilə yenicə əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər çiyin-çiyinə çalışacaqları işçilərlə yanaşı, ilk növbədə kollektivə başçılıq edən vəzifəli şəxsdən nümunə götürürlər. Rəhbərə məxsus xüsusiyyətlər kollektiv üzvlərinə də sirayət edir. Bu baxımdan heç kəsə sirr deyil ki, Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsində işə düzələn kadrlar ənənəvi olaraq kollektivimiz üçün əsl ağsaqqal sayılan professor Abuzər Xələfovun tə'lim-tərbiyə, ədəb-ərkan, nizam-intizam məktəbindən də dərs almalı olurlar.

Mən 25 ildir ki, Abuzər müəllimin rəhbərlik və ağsaqqallıq etdiyi kollektivdə fəaliyyət göstərirəm. Şəxsiyyətinə bələd olduğum bu nurani insan ötən müddət ərzində mənim nəzərimdə insanlığın ən yüksək zirvəsinə qədər ucalmışdır. Onun mənəvi saflığı, əqidə təmizliyi, işgüzarlığı, obyektivliyi təkcə mənim üçün yox, digər iş yoldaşlarım üçün də pozulmaz meyar olmuşdur. Professor Abuzər Xələfov özünə, mənliyinə, şəxsiyyətinə hörmət etməyi və onunla ünsiyyətdə olan insanların şəxsiyyətini düzgün qiymətləndirməyi bacaran şəxsdir.

Etiraf etməliyəm ki, kitabxanaşünaslıq kafedrasında uzun illər ərzində can-başla işləməyin həqiqi səbəbkarı da məhz vicdanlı, mənəviyyatlı, qayğıkeş insan kimi dərin rəğbət bəslədiyim müəllimim Abuzər Xələfov olmuşdur. O, təkcə başçılıq etdiyi kollektivin üzvlərinə deyil, həmçinin müxtəlif fakültə və kafedralardan məsləhət üçün yanına gələn şəxslərə də qayğı ilə yanaşmış, imkan daxilində kömək göstərmiş, təmənnasız yaxşılığını əsirgəməmişdir.



Abuzər müəllimin ən üstün keyfiyyətlərindən biri də kitabxanaşünaslıq və biblioqrafiya ixtisası ilə bağlı bütün yenilikləri yorulmadan təbliğ etməsi, müəllim-laborant heyətini müntəzəm olaraq təkmilləşməyə çağırması, kitabxanaşünaslıq fakültəsinin nüfuzunu həmişə və hər yerdə qoruyub saxlamasıdır. Onun zəngin biliyi, çoxillik təcrübəsi və tükənməz enerjisi daim kitabxanaşünaslıq elmini inkişaf etdirməyə imkan verir.

Birgə fəaliyyət göstərdiyimiz illərdə mən dəfələrlə şahidi olmuşam ki, Abuzər müəllim Azərbaycanda kitabxana işi tarixini dərindən araşdırılıb öyrənilməsi, kitabxanaçı kadrların yetişdirilməsi üçün necə ürəklə, necə həvəslə çalışır. Bəzən kiatbxanaşünaslıq sahəsində xor baxan üzdəniraq ziyalıları susdurmağı da görkəmli alim Abuzər Xələfov çox yaxşı bacarır. Cəmiyyətdə kitabın və kitabxananın rolunu bilməyən belə şəxslərin Abuzər müəllimin dəmir məntiqi qarşısında susub qaldığını və səhvini etiraf etdiyini görəndə həmişə dərin sevinc hissi keçirmişəm.

Ağsaqqalımız Abuzər Xələfovun 70 yaşı tamam olur. Bu illər ərzində o, nələr etməyib, hansı zirvələrə yüksəlməyib?! Bu gün kitabxanaçılıq sahəsindən söz açılanda dərhal ilk növbədə Abuzər müəllimin adı çəkilir. Bundan böyük xoşbəxtlik ola bilərmi?!

Səmimi insan, qayğıkeş rəhbər, məşhur alim Abuzər Xələfovu yubileyi münasibəti ilə səmim-qəlbdən təbrik edir, ona can sağlığı və uğurlar arzulayıram!